# Kremli azərbaycanlı tikib

**Əslən Şamaxıdan olan memarın adı ilə həyata vəsiqə alan bu nəhəng tikili tarixə də "Kərəmli" kimi düşüb. Sonralar bu söz ("Keremli") təhrif edilərək "Kreml" şəklini alıb. Hazırda bununla bağlı sənədli filmin çəkilişinə hazırlaşılır...**



*Təqribən 7 il əvvəl, Azərbaycanın tanınmış jurnalisti, görkəmli tədqiqatçı, mərhum Oqtay Eldəgizin gərgin əməyi nəticəsində cəmiyyətimiz üçün böyük maraq kəsb edən tarixi bir həqiqət gündəmə gətirildi. Bu tarixi gerçəkliklərin üzə çıxarılmasında başlıca məqsəd Azərbaycanın dünya şöhrətli memarı Əliş Sübhan oğlu Kərəmlini ictimaiyyətə yaxından tanıtdırmaq idi.*

Əliş Kərəmli haqqında tarixi gerçəklikləri üzə çıxaran mənbələr aşağıdakılardan ibarətdir: Ərəb Şərqində İngiltərə xüsusi xidmət idarəsinin məşhur kəşfiyyatçısı, "Səhra pələngi" ayamalı Henri Lourensin xatirələri ("Görünməyən surətlər") əsəri, yəhudi mənşəli böyük alman riyaziyyatçısı Eylerin Kremlin inşası tarixinə dair təəssüratları ("Triqonometriya haqqında fikirlər" kitabı), S.Borodinin "Dmitriy Donskoy" tarixi romanı, Əliş bəy və onun vətəninə dair qısa bilgilər. Bu tarixi mənbələrdən bəhrələnərək, biz Əliş Sübhan oğlu Kərəmlinin kim olduğunu, hansı tarixi sənət əsərləri yaratdığını və orta əsrlərədək Kərəmli kimi tanınmış tikilinin necə Kremlə çevrilməsini oxucularımıza çatdıracağıq.

XIV əsrin adlı-sanlı memarlarından olan Əliş Sübhan oğlu Kərəmli Yaxın Şərqdə, Qafqazda, İranda, Hindistanda və doğma vətəni Azərbaycanda tanınmış sənətkarlardan biri və bəlkə də birincisi idi. O, Dəməşqin Bağlar bölgəsindəki məhəllələsində ərəb üslublu üç əzəmətli dördmərtəbəli binanın, Dəclə çayı üzərindəki beştağlı Bağdad körpüsünün, Qırımdakı (Krım) Bağçasaray mülkünün və fəvvarələrin, gürcülərin qədim baş kəndi Msxetada (Tbilisi yaxınlığı) knyaz Dodianın sarayının, Təbrizdə Kərim ağa mədrəsə topcasının (kompleksinin), Şirazda nəhəng 80 otaqlı karvansaranın, Şamaxıda bu günümüzədək qalıqları duran köhnəlmiş şəhərə giriş körpüsünün və onlarca tikilinin müəllifi kimi tanınmışdır.

Memar Əliş Kərəmlinin şöhrəti qısa zamanda vətənin hüdudlarını aşmış, sənətkarlıq qabiliyyəti Moskva böyük knyazı Dmitriy İvanoviçin də (o, hələ 1380-cı ilin 8 sentyabrında Don çayını keçərək, Tula vilayətinin Kulikovo çölündə monqol qoşunları və Mamay üzərində qələbəyə görə "Donskoy" ayamasını almamışdı) diqqətindən yayınmamışdır. Böyük knyaz D.İvanoviçin təşəbbüsü ilə 1366-cı ilin sonlarında Rusiya sarayından boyar İ.A.Baratinski və Şirvanşahların Moskva knyazlığındakı səfiri Qafur bəy knyazlığın on süvarisi ilə birlikdə yola çıxdılar. Knyazın tapşırığı ilə xınayı rəngli yeddi köhlən at hədiyyə tayları ilə yüklənib yolçulara həvalə edilmişdi. Bu hədiyyə taylarının içində Vladimir kürklərindən tutmuş qiymətli çex büllur güldanlarınadək zəngin, şahlara layiq ənamlar vardı. Knyazın hədiyyələri Şirvanşah Şeyx İbrahim Yəssarı (1352-1417) şərəfləndirmək məqsədi güdürdü.

1367-ci il yanvar ayının 5-də, şaxtalı və çiskinli bir qış səhəri. Moskva böyük knyazının elçiləri uzun yolu qət edib sağ-salamat Şirvanşahların baş kəndi Şamaxıya çatdılar. Müsafirlərə layiq ehtiramla qarşılanan elçilər sarayın baş darvazasından həyətə daxil oldular. Qarşılanma törənindən sonra boyar Baratinski böyük knyazının məktubunun məzmunu ilə Şirvanşah Şeyx İbrahimi bilgiləndirməyə başladı. Tərcüməçi işini şahlığın Moskva knyazlığındakı səfiri Qafur bəy həyata keçirirdi. Şirvanşahlar diyarının və bütöv Azərbaycanın ali memarı və baş inşaatçısı kimi məşhur olan Əliş Sübhan oğlu Kərəmli Moskva böyük knyazının təklifilə möhtəşəm tikilinin inşasına dəvət olunurdu. Bu, Dmitri İvanoviçin Şeyx İbrahimə ilk xahiş məktubu idi. Şeyx İbrahim əvvəlcə sevimli sənətkarı buraxmaq istəmədi, amma onun şəxsi təhlükəsizliyinə dair knyaz zəmanətini və sevimli memarı Əliş bəyin razılıq ovqatını nəzərə alaraq, sonda etiraz etmədi. Şirvanşahdan səfər xeyir-duasını almış ustad sənətkar yola hazırlaşdı. 1367-ci il yanvarın 10-da rus elçiləri və memar Əliş Kərəmli Moskvaya yola düşdülər.

1367-ci il mart ayının 14-də knyaz Dmitriy İvanoviçlə memar Əliş Kərəmli arasında müqavilə imzalandı. Müqaviləyə görə, işçi qüvvəsinə, maliyyə təminatına, ərazi dəyişmələrinə məhdudiyyət qoyulmur, nəzarətlər, təftişlər, baş memar layihəsinə düzəlişlərə müdaxilə edilmir, ona tam sərbəstlik və boyar statusu verilirdi. Bu böyük inşaat hədəfi 4 il ərzində başa çatmalı idi. Moskva çayı və onun qolu Yauza çayının dörd yandan qucduğu adada üç şəhər, onun qüllələrlə, bürclərlə, darvazalarla oymaqlanmış qala divarları tikilməliydi. Memar Əliş bəy, öncə çöl divarların sürətli layihəsini böyük knyaza təsdiqlətdi. Nəhayət, martın 25-də (həmin gün ruslar "Blaqoveşeniye" bayramı keçirir, yəni Məryəm ananın Müqəddəs Ruhdan nütfələnməsi vaxtı ) tikintinin bünövrələrinə ilk yonma qara daşlar qoyuldu. İç və çöl qala divarları əvvəllər ağac və gil möhrədən inşa edildiyindən memar Əliş bəyin əmri ilə sökdürüldü. Əliş bəy, Rusiyada ilk dəfə malaya (suvağa) çiy yumurta ağını qatmaqla hamını heyrətləndirdi. Tikintidən bir il sonra artıq bürclü qala divarları, beş qüllə və altlarındakı beş darvaza hasilə gəldi. Əliş bəyə qədər ağac və gil möhrədən ucaldılmış divarların qarşısında qazılan, içərisinə su tökülən dərin xəndəklər torpaq və guşə daşlarıyla doldurularaq, möhkəmcə pərçimlənmiş, yeni layihəyə uyuşmayan əlavə kimi ləğv edilmişdir. Çöl divarlarının üst hissələri dik dirsək şəkilli çıxıntılarla haşiyələnmişdi ki, bu da onların görüntüsünü, əzəmətini qat-qat artırırdı. Qala divarlarının ümumi uzunluğu 3,4 minar (km), qalınlığı 1,2 arşın, hündürlüyü 5,7 arşın idi. İşə başlanarkən tikintinin ətrafı taxta hasara alınmışdı ki, hədəfə toz-torpaq düşməsin, seyrçi əhali fəhlələrin diqqətini işdən yayındırmasın. Əliş bəyin təşəbbüsü ilə tikintinin hasara alınması Rusiya məkanında yenilik idi. Bu dövlət əhəmiyyətli tikintiyə 1500 nəfərlik işçi qüvvəsi cəlb edilmişdi. Onlar kənarda rahat və lazımi şərait olan köşklərdə yaşayır, gündə iki dəfə isti xörəklə təmin olunur, həftədə bir gün istirahət edirdilər. Aşpazlar gənc qadın və qızlardan ibarət idilər. Əliş bəy fəhlələri şəhərin 110 minlik ən yoxsul ailələrindən seçib işə götürmüşdü. Ustalar ayda bir onluq qızıl, adi işçilər 7 rubl qızıl pul əmək haqqı alırdılar. Maaşlar vaxtında ödənilirdi. Ödəmədə mükafat və başqa həvəsləndirici müavinətlər də tətbiq olunurdu. Pulsuz nahar və şam yeməkləri işçilərin ovqatını durult`muşdu. Sözügedən maaşlar o zaman üçün böyük məbləğ hesab edilirdi. Tikinti dövründə 1 ilin nəticələrinə görə bir dəfə də olsun əmək haqqı mübahisəsi baş verməmişdi. Nizam-intizam işləri yüksək səviyyədə təşkil edilmişdi. Əliş bəy tikintidə çalışanlara söz vermişdi ki, iş tamamlandıqdan sonra bütün köşklər içindəki əmlakla birlikdə orada yaşayanlara bağışlanacaqdır. Moskvalılar memar Əliş bəyi dəlicəsinə sevirdilər. Buna səbəb bir yandan şəhər əhlinin tikintidən dolanmasıydısa, digər səbəb də Əliş bəyin müdrik keyfiyyətlərə malik bir şəxsiyyət olması idi. Camaat inşaat meydançasına "Keremli", tikinti dairəsinə isə "Keremli sırası" (Kremlovskiy ryad) deyirdi.

Gərgin əməyin və işgüzar çalışmaların nəticəsində möhtəşəm tikinti başa çatdırıldı. Qüllələrə ad verilərkən belə mənzərə yarandı: Baş qüllə "Spassk" (Spas), digərləri Troitsa, Nikola, Borovitsa və Keremli kimi tarixə düşdü. Beşinci qüllə memar Əliş bəyin qızğın etirazlarına rəğmən, tikintidə və məişətdə, yəni knyazın sarayında onu kölgə kimi izləyən, memarla məhrəmanə dolanan, ona qarşı məhəbbət və rəğbət duyğularını gizlətməyən, hər gün onunla görüşən böyük knyazın bacısı qızı 16 yaşlı Annanın dayısına yalvarışları və işçi kollektivinin yekdil müsbət rəyi sonucunda belə adlanmış və sənədlərdə soydaşımız Əliş bəyin adına ölməzlik gətirmişdir...

1371-ci il mart ayının 25-də "Xeyir xəbər günü" Əliş Sübhan oğlu Kərəmli tərəfindən inşa edilən əzəmətli tikintinin təntənəli açılışı oldu. Memar Əliş bəy Kremlin inşasında öz layihəsinə əsasən, qülləli-bürclü çöl-qala divarların 175 hektarlıq həyətində knyazlar sarayı, kilsə, yığıncaq yeri, boyarların və kilsə xadimlərinin yaşyış binalarını və yardımçı tikililəri böyük ustalıqla yaratmışdı. Bundan başqa Yauza çayınacan və Moskva çayının altından keçməklə üç istiqamətdə mülki-hərbi strateji dəyəri olan sirli yeraltı yollar da inşa edilmişdi. Həmçinin qat kömbələrin (mənbəyi Əliş bəyin vətənində olmuş və sonradan dünya dillərinə keçmiş "Katakomba") ortasında şəhər sularının axıb çaylara töküldüyü üçün bir arşın enində arx döşənmiş və müxtəlif təyinatlı otaqlar, anbarlar, kahalar da inşa edilib başa çatdırılmışdı. Möhtəşəm sənət məbədinin açılışında iştirak edən knyaz Dmitri İvanoviç də, moskvalılar da, xarici qonaqlar da, hətta kin-küdurətli boyarlar da bu tikintinin gözəlliyi qarşısında heyrətlərindən donub qalmışdılar. Ən çox sevinən isə Anna xanım idi. O, Əliş bəyə qısıla-qısıla sevincindən göz yaşlarını saxlaya bilmirdi...

Əliş bəy Moskvada qaldığı 4 il ərzində Şamaxıya ailəsinə cəmi bir dəfə baş çəkə bilmişdi. O, bu günü səbirsizliklə gözləyirdi. Əliş bəy möhtəşəm tikili başa çatdıqdan sonra Şirvana qayıtmaq ərəfəsində knyaz Dmitri İvanoviçlə razılaşma imzaladı. Razılaşmada qərara alındı ki, memar vətənə dönür, yaz bitən gün Moskvaya qayıdır, ona çatası zəhmət haqqını alır və onun şərəfinə veriləcək ziyafətdə iştirak edir. Bu razılaşmadan sonra Əliş bəy vətəninə yola salınır.

...Memar Şamaxıda bir müddət qaldıqdan sonra yenidən Moskvaya qayıdır. Həmin il yayın ilk günlərində Moskva-Smolensk yolunun 9 minarında (km) indiki Volokolamsk yolunun başlanğıcında, soldakı meşə talasında böyük sənətkarımızın qayıtma məclisi açıldı. Lakin sonra aydın oldu ki, D. İvanoviç "xəstə" olduğu üçün məclisdə iştirak etməyəcək. Təəccüblü görünsə də boyarlar, aşbazlar dəstəsi və saray musiqiçiləri məclisdə böyük əhval-ruhiyyədə iştirak edirdi. Anna xanımın sevinci yerə-göyə sığmırdı. Şirin şərabın, ləziz ət xörəklərinin, növbənöv qəlyanaltıların şövqündən məst olmuş məclis əhli xumarlıq və sərxoşluq içində idi. Böyük memarımızı gözləyən təhlükədən isə yalnız onun özü və Anna xanım bixəbər idi...

1371-ci il iyun ayının 22-də bir kazak atamanı arxadan güclü zərbə endirərək xaincəsinə soydaşımız Əliş bəyin başını bədənindən ayırdı. Bu şərəfsiz qətlin icra olunmasında başlıca məqsəd böyük memarımızın adını yox etmək və "Keremli"ni ucaldan sənətkarımızın adını tarixdən silmək idi.

Qəddarcasına qətl edilən Əliş bəy elə oradaca, qərib eldə dəfn edildi. Bu böyük itkiyə ən çox üzülən isə Anna xanım idi. O, memarımızın bu itkisinə dözmədi, saçlarını qırxdıraraq Penza rahibəxanasına yollandı və ömrünün sonunacan memarımızın məzarına qulluqdan usanmadı. Müqaviləyə, verdiyi sözə, qəbul olunmuş bəşəri qaydalara məhəl qoymayan qarşı tərəf nəinki namərdlik yolunu seçdi, həm də Kərəmlinin "Kremlin" yaradıcısı kimi tanınması yönündə susmağı üstün tutdu.

1556-cı ilin avqustunda IV İvan Qroznı tarixi gerçəklikləri saxtalaşdıraraq xüsusi fərmanla "Keremli" qülləsini "Vodovzvod"a çevirdi. Lakin XIX əsrin sonlarınacan rusiyalılar, dünya ictimaiyyəti, səyyahlar və rəsmi sənədlər bu ölməz abidəni gah "Keremli", gah "Kremli", gah da qısaca "Kreml" deyə yad edirdilər. Beləliklə, "Kreml" adı tam sabitləşdi.

Rus yazıçısı Borodinin "Dmitriy Donskoy" tarixi romanında bu həqiqətlərə dair qısa qeydləri nəzərə almasaq, rus qaynaqları, xüsusən İ.Karamzinin "Rus imperiyasının tarixi" adlı çox cildli əsərində bu haqda zərrə qədər də olsa məlumat verilmədi.

Vaxt ötdü. İllər keçdi. 49 yaşında ikən qətlə yetirilən Əliş bəyin layihəsi əsasında Smolenskdə, Novqorodda, Kazanda, Praqada "kremllər" inşa edildi. Lakin öz əzəməti ilə dünyaya səs salan ölməz inşaat məbədi digərlərindən öz gözəlliyi ilə seçildi.

*1997-ci ildə Rusiya, paytaxtı Moskvanın 850 illiyini təntənə ilə qeyd etdi. Rusiyanın eks-prezidenti V.Yeltsin və Moskva şəhərinin meri Y.Lujkov Moskvanın tarixi haqqında söhbət açsalar da nədənsə Kremlin yaranma tarixinə baş vurmadılar. O zaman bizim tədqiqatçı alimlərimiz də məsələyə laqeyd yanaşdılar. Bizlərin dünya əhəmiyyətli bu məsələyə laqeyd münasibətimiz və dahi memarımız Əliş bəyə sahib çıxa bilməməyimiz acı təəssüf hissi oyadır...*

**Ülfət CAVAD**